

# Bu gün Azərbaycan Avropanın etibarlı enerji təchizatçısıdır

***❒ İyirmi dörd il bundan əvvəl ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılan "Əsrin müqaviləsi" müasir tariximizə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılıb. O zaman Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyev xarici tərəfdaşlarla aparılan gərgin danışıqlarda böyük diplomatik məharət göstərərək, bu müqavilənin imzalanmasında mühüm rol oynayıb, sonrakı mərhələlərdə isə bu taleyüklü layihənin uğurla gerçəkləşməsinə bilavasitə rəhbərlik edib.***

"Əsrin müqaviləsi" qlobal layihə olmaqla Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərib, dövlət müstəqilliyimizin mühüm təminatına çevrilib. Bu müqavilə hazırda da həm işlənən yataqlarda karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada həyata keçirilən ən iri sazişlər siyahısına daxildir.

Burada mühüm bir tarixi hadisəni də xatırlatmaq istərdik. Ötən il noyabrın 8-də Bakıda Azərbaycanda böyük tarixi hadisə baş verdi, iki milyardıncı ton neftin hasil edilməsi reallaşdı. 1971-ci ildə Azərbaycanda bir milyardıncı ton neft hasil olunmuşdu. Respublikamız müstəqillik əldə etdikdən sonra hasil olunan 700 milyon ton neftin 460 milyon tonu "Azəri-Çıraq-Günəşli" bloku və "Şahdəniz" yatağı konsorsiumları tərəfindən, qalanı isə (240 milyon ton) SOCAR tərəfindən hasil edilib.

Burada onu da vurğulayaq ki, ötən il SOCAR tərəfindən təsdiq olunan proqramlara uyğun olaraq, neft-qaz hasilatının düşmə tempinin qarşısını almaq, eyni zamanda, sabitləşdirilməsinə və qismən artırılmasına nail olmaq üçün istər fəaliyyətdə olan, istərsə də fəaliyyətsiz quyu fondu üzərində elmi-texniki əsaslara istinad etməklə istehsalatın bütün istiqamətləri üzrə məqsədyönlü geoloji-texniki, texnoloji tədbirlər həyata keçirilib.

SOCAR tərəfindən ölkə hüdudlarında, eləcə də Xəzər dənizinin Azərbaycana aid olan hissəsində son bir ildə ümumilikdə 7 milyon 427,1 min ton neft hasil edilib ki, bunun 6 milyon 169,6 min tonu "Azneft" İB-nin, 1 milyon 257,5 min tonu isə şirkətin payçı olduğu yataqların hesabına düşür. İl ərzində quru və dəniz sahələrində ümumilikdə 81 yeni quyu istismara təhvil verilib.

Keçən ilin sentyabr ayının 14-də Azərbaycan Prezidentinin və bir qrup yüksək səviyyəli xarici hökumət və dövlət rəsmilərinin iştirak etdiyi tədbirdə Azərbaycan hökuməti və SOCAR, "BP", "Chevron", "İNPEX", "Statoil", "ExxonMobil", "TPAO", "İTOCHU" və "ONGC Videsh" şirkətləri tərəfindən "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilən və yenidən işlənən saziş imzalandı və beləliklə də "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsində yeni dövr başlandı.

Hasilatın pay bölgüsü haqqında dəyişdirilən və yenidən işlənən sazişə əsasən, AÇG yataqlarının işlənməsi 2049-cu ilə qədər uzadıldı və BP layihənin operatoru olaraq qaldı.

Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı və beynəlxalq tərəfdaş şirkətlərin Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard ABŞ dolları bonus ödəyəcəkləri qərara alındı.

Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin 75 faiz təşkil edəcəyi gözlənilir. Növbəti 32 il ərzində AÇG-yə 40 milyard ABŞ dollarından çox sərmayə qoyulması da proqnozlaşdırılır.

Xatırladaq ki, bu sazişin ardınca, SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma da əldə olunub.

Yeri gəlmişkən, "Əsrin müqaviləsi" imzalanandan AÇG-yə 33 milyard ABŞ dolları həcmində sərmayə qoyulub və 440 milyon ton neft hasil edilməklə ölkəmiz 125 milyard ABŞ dollarından çox mənfəət əldə edib. İlk neft "Çıraq" yatağından 1997-ci ilin noyabr ayının 7-də əldə edilib. İndiyədək AÇG-dən təqribən 3,2 milyard barel (440 milyon ton) neft hasil edilib və bu neft dünya bazarına əsasən, Bakı-Tbilisi-Ceyhan və Qərb Marşrutu İxrac Boru Kəməri vasitəsilə daşınıb. AÇG dən, ümumilikdə 30 milyard kubmetrdən artıq səmt qazı Azərbaycan hökumətinə təhvil verilib.

Şahdəniz Mərhələ-2 və ya Yatağın Tammiqyaslı İşlənməsi (YTİ) layihəsi Şahdəniz Mərhələ-1 layihəsindən hasil olunan illik 9 milyard kubmetrdən əlavə, 16 milyard kubmetr qaz hasil edəcək nəhəng bir layihədir. Qazın hasil edilməsi və onun Gürcüstan --Türkiyə sərhədinə çatdırılması üçün təxminən 28 milyard ABŞ dolları dəyərində kapital qoyuluşuna ehtiyac vardır. Bundan sonra əlavə kəmər sistemləri Cənub Qaz Dəhlizi marşrutu üzrə 6 milyard kubmetr qazı Türkiyəyə, əlavə 10 milyard kubmetr qazı isə Avropadakı bazarlara çatdıracaq.

Cənub Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) Şahdəniz Yatağının Tammiqyaslı İşlənməsi layihəsinin bir hissəsidir. Genişlənməyə Azərbaycan boyu yeni kəmərin çəkilməsi, Gürcüstanda iki yeni kompressor stansiyasının tikilməsi daxildir. Bu, kəmər vasitəsilə ixrac olunan qaz həcminin üç dəfə artaraq ildə 20 milyard kubmetrə çatması ilə nəticələnəcək.

Gürcüstan və Türkiyə sərhədində kəmər başqa kəmərlə birləşərək qazı Türkiyəyə və Avropaya çatdıracaq.

CQBKG layihəsi ilə bağlı yekun investisiya qərarı Şahdəniz Mərhələ-2 ilə eyni vaxtda, 2013-cü il dekabrın 17-də verilib.

CQBK Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz qaz yatağından hasil edilən qazı Gürcüstana və Türkiyəyə nəql etmək üçün inşa edilən qaz kəməridir. Boru kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayır.

Bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə eyni marşrutdadır və Türkiyədə bu ölkənin qazpaylama sisteminə birləşdirilib.

Ətraf mühitə və sosial sahəyə təsirlərin minimuma endirilməsi, eləcə də layihələrin birləşdirilməsi sayəsində əsaslı və əməliyyat xərclərinə qənaət edilməsinə nail olmaq məqsədilə bu kəmər Bakı-Tbilisi-Ceyhan neft ixracı kəməri ilə birlikdə və eyni tikinti dəhlizində inşa olunub.




Bütövlükdə, boru kəmərinin istismar əməliyyatlarına və tikintisinə Cənubi Qafqaz Boru Kəməri şirkəti (CQBK Ko) cavabdehdir. Bu boru kəməri 2006-cı ilin sonlarında istismara verilərək əvvəl Azərbaycana və Gürcüstana, 2007-ci ilin iyul ayından başlayaraq isə həm də Türkiyəyə Şahdəniz Mərhələ-1 qazını çatdırır. İl ərzində CQBKG layihəsi üzrə işlər Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyunca uğurla davam etdirilib və 2018-ci ildə istismara verilmək planına uyğun irəliləyir. Son bir il ərzində CQBK-nin gündəlik orta ötürücülük gücü təqribən 20,4 milyon kubmetr qaz olub.

Azərbaycan təbii qazını Gürcüstan-Türkiyə sərhədinə qədər daşıyacaq CQBKG, qardaş ölkədən keçərək Yunanıstanadək uzanacaq "Trans-Anadolu" (TANAP) və Yunanıstan, Albaniya, Adriatik dənizindən keçməklə İtaliya sahillərinə çıxacaq "Trans-Adriatik" (TAP) boru kəməridir. CQBKG layihəsinə əsasən, TANAP və TAP boru xətləri vasitəsilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qaz Türkiyəyə və bu ölkədən də Avropaya çatdırılacaq.

Uzunluğu 3 min 500 kilometr olan Cənub Qaz Dəhlizi vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır. Artıq mühəndis, təchizat, tikinti işləri və istismar sınaqları da daxil olmaqla "Şahdəniz-2" layihəsi üzrə işlərin ümumilikdə 97 faizdən çoxu tamamlanıb və bu layihədə ilk qazın 2018-ci ildə əldə edilməsi planlaşdırılır.

"Şahdəniz" konsorsiumu 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana ilk qaz satışını həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən bir il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək. TAP layihəsi CQBK-nin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhədində yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq.

Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.



***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***